**Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Fizika və Kimya kafedrasının dosenti, kimya üzrə fəlsəfə doktoru Nəbi Miri oğlu Babayev haqqında qısa**



**MƏLUMAT**

1949-cu il fevralın 12-də qərbi Azərbaycanın Qaraqoyunlu mahalının Çaykənd kəndində anadan olmuşdur.

1970-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya fakültəsində bitirmişdir.

1976-cı ildən Azərbaycan Memarlıq və İnşaat Universitetində işləyir.

1982-ci ildə Dnepropetrovsk Dövlət Universitetində “Aromatik karbohidrogenlərin luis turşularının iştirakı ilə epixlorhidrinin alkenil törəmələri ilə alkilləşməsi” mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1996-cı ildən AzMİU-nun Kimya kafedrasının dosentidir.

Elmi tədqiqat işlərində polifunksional üzvi monomerlərin müqayisəli reaksiyaya girmə qabiliyyətlərini tədqiq etmişdir. İlk dəfə aromatik birləşmələrin epixlorhidrinin alkeniləvəzli törəmələri ilə tsikloalkenləşmə reaksiyalarını tədqiq etmişdir. İlk dəfə olaraq çoxnüvəli aromatik karbohidrogenlərin epoksid törəmələrinin alınma üsullarını müəyyən etmişdir.

Aromatik sıra epoksid birləşmələrin, ED-20 və digər epoksid qatranların da modifikasiya, plastifikasiya və stabilləşdirici xassələrini tədqiq etmiş, onlar əsasında müxtəlif tərkibli kompaundlar hazırlamışdır.

. Elmi işlərinin nəticələri:
“Tətbiqi kimya jurnalı” (Moskva), “Üzvi kimya jurnalı” (Sank-Piterburq)
AMEA-nın məruzələri, “Azərbaycan Kimya jurnalı” və digər jurnallarda dərc edilmişdir.
Üç müəlliflik şəhadətnaməsinin, 10 dərs vəsaitinin müəllifidir.
Moskva, Budapeşt, İrkutsk, Tbilisi, İstanbul və Respublika konfranslarında, XII-Mendeleyev qurultayında elmi məqalələrlə çıxış etmişdir.

**Tədris etdiyi fənlər:** Ümumi kimya, Üzvi kimya, Ətraf mühitin kimyası və toksikologiya
**Tədqiqat sahəsi:** Heterotsiklik üzvi birləşmələrin xassələri və tətbiqi.
**Əsas elmi əsərləri** 100-dən artıq elmi əsərləri nəşr edilmişdir

İş tel.: (+99412)539-06-51, daxili 6-02
Mob.tel: (+99450)721-45-08
E-mail: nabi.babayev@yandex.ru